# MDB-yə üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının Hüquq Mühafizə Bölmələri başçıları Qəbələyə toplaşıb

*Sentyabrın 20-də Qəbələ şəhərində MDB-yə üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının Hüquq Mühafizə Bölmələri Başçıları Komitəsinin 16-cı iclası keçirilib.*



Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, tədbirdə MDB-yə üzv dövlətlərin - Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan və Özbəkistan gömrük xidmətlərinin hüquq mühafizə bölmələrinin başçıları, eləcə də müşahidəçi qismində Latviya və Estoniya gömrük xidmətlərinin nümayəndələri iştirak ediblər.

İclas iştirakçıları tədbirdən öncə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Qəbələ şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət ediblər.

Tədbirin açılış mərasimində çıxış edən Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Aydın Əliyev gömrük orqanlarının fəaliyyətində hüquq mühafizə işinin yüksək əhəmiyyətini qeyd edib, həmçinin hüquq



mühafizə sahəsində beynəlxalq əməkdaşlığın inkişafının vacibliyini vurğulayıb. MDB-yə üzv dövlətlərin gömrük xidmətlərinin hüquq mühafizə bölmələrinin fəaliyyətini, qarşılıqlı əməkdaşlıq əsasında atılan addımları yüksək qiymətləndirən Aydın Əliyev səmərəli əməkdaşlığın qaçaqmalçılığa qarşı mübarizə, sərhədlərin təhlükəsizliyinin təmin edilməsi sahəsində mühüm nailiyyətlər əldə edilməsinə şərait yaratdığını ifadə edib.

Rusiya Federasiyası Federal Gömrük Xidməti rəhbərinin müavini Anatoli Serışevin sədrliyi ilə keçirilən iclasın gündəliyinə əsasən, öncə Dövlət Gömrük Komitəsinin "Gömrük hüquqpozmaları və qaçaqmalçılığa qarşı mübarizə sahəsində Azərbaycan Gömrük Xidmətinin işinin təşkili" mövzusunda təqdimatı keçirilib.

Bundan başqa, iclasda Qafqaz istiqamətində "şimal marşrutu" üzrə narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi, gömrük sahəsində hüquqpozmaların aşkar edilməsi, aradan qaldırılması və istintaqının aktual məsələləri, MDB-yə üzv dövlətlərin gömrük xidmətlərinin hüquq mühafizə orqanlarının əməkdaşları üçün ixtisasın artırılması tədbirlərinin təşkili üzrə planın icrasının ilkin nəticələri və kinoloji xidmət məsələləri üzrə işçi qrupun fəaliyyəti barədə hesabatlar təqdim olunub.

Sonda Hüquq Mühafizə Bölmələri Başçıları Komitəsinin 2018-ci il üçün iş planlarının qəbul edilməsi barədə məsələlər nəzərdən keçirilib.

# V ölkə çempionatının qalibləri məlum olub

Qəbələ rayonunda Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Klubu və FHN İşçilərinin Həmkarlar Təşkilatı tərəfindən birgə keçirilən səmti müəyyən etmə idman növü üzrə FHN-in V respublika çempionatının final mərhələsi başa çatıb.



Meşə massivində keçirilən ölkə çempionatında 19 qurumdan 19 komanda olmaqla 91 kişi və 5 qadın idmançı iştirak edib.

İki gün davam edən yarışın final mərhələsində komandaların mübarizəsi ilə yanaşı, FHN əməkdaşları şəxsi birincilik üzrə də öz bacarıqlarını nümayiş etdiriblər.

Sonda qaliblərə medal, diplom, kubok və qiymətli hədiyyələr təqdim olunub.

Qeyd edək ki, FHN-in əməkdaşları səmti müəyyən etmə idman növü üzrə Azərbaycan milli yığma komandasının heyətinə cəlb olunaraq dünya və Avropa çempionatlarında iştirak edəcək.

**«Qəbələ»**

# Bu günədək 53 ton quru tütün tədarük edilib

***Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, ölkəmizdə ixracyönümlü və ənənəvi sahələrin dirçəldilməsi ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində Qəbələ rayonunda da tütünçülüyün inkişaf etdirilməsi qarşıya məqsəd qoyulub.***

Uzun fasilədən sonra Qəbələdə ikinci ildir tütün əkilir. Ötən il rayonda 50 hektar sahədə tütün əkən fermerlər dövlət qayğısından ruhlanaraq, bu il əkin sahələrini xeyli genişləndiriblər. Tütün rayonun Mamaylı, Şamlı, Böyük Əmili və Kiçik Əmili kəndlərində əkilib. Fermerlər tütünün becərilməsi istiqamətində lazımi aqrotexniki qulluq işləri aparıb və bol məhsul yetişdiriblər. Hazırda sahələrdə məhsul yığımı davam etdirilir. Ötən bir ay ərzində tütün sahələrindən 53 ton məhsul tədarük olunaraq "Şəki" Tütün Korporasiyasına təhvil verilib.

Rayonda tütün istehsalçıları əkin zamanı yerli şəraitə uyğunlaşdırılmış sortlara üstünlük verirlər. Bu il 66 hektar sa-



hədə "İmmunium-558" və 4 hektar sahədə "Berley" sortundan olan şitillər əkilib. Bu növlərdən olan tütün bitkisinə düzgün aqrotexniki qulluq edilərsə, hər hektardan 35-40 ton yaşıl kütlə və ya 3,5-4 ton qurudulmuş məhsul götürmək mümkündür.

Qeyd edək ki, rayonda 22 torpaq mülkiyyətçisi tərəfindən 70 hektar sahədə tütün əkilib, onun becərilməsi və məhsulun toplanılması prosesinə 180 nəfərdən çox işçi cəlb olunub. Bu da kənd sakinlərinin məşğulluğunun təmin edilməsinə, dolanışıq şəraitinin yaxşılaşmasına müsbət təsir edir.

Məlumata görə, ötən il Qəbələdə 50 hektar tütün sahəsindən 19 ton məhsul tədarük olunub. Bu il rayonda 200 tondan çox tütün istehsalı gözlənilir. Dövlət tərəfindən verilən subsidiyadan bəhrələnən fermerlər gələn il daha geniş sahədə tütün əkini aparmağı planlaşdırırlar.

**"Qəbələ"**

# Rayonda kənd təsərrüfatı işləri geniş vüsət almışdır

***Sentyabr ayı kənd təsərrüfatı işçiləri üçün mühüm dövrdür. Artıq rayonda məhsul toplanışı geniş vüsət almış, anbarlarda payızlıq əkin üçün toxum təmizləmə işlərinə başlanılmışdır. Bu günə qədər 2850 tondan çox buğda və arpa toxumu təmizlənmiş, toxumçuluq laboratoriyasında analiz edilmişdir. Hazırda toxumtəmizləmə işləri davam etdirilir.***

Taxılçılarımız əsasən «Cəlilabad-19», «Qarabağ-22» arpa, «Qobustan», «Azəri», «Aran», «Murov-2» buğda toxumlarına üstünlük verirlər. Bu toxumlar yerli şəraitə uyğundur və uzun müddətdir ki, taxıl istehsalçıları bu toxumlardan istifadə edirlər.

Rayonda mühüm ərzaq məhsulu hesab olunan kartofun da toplanılmasına başlanılmışdır.





İndiyədək sahələrdən 12.200 ton kartof yığılmışdır. Bu sahədə «Gilan» MMC-nin kartofçuluq təsərrüfatı öndə gedir. Təsərrüfatda indiyədək 5.700 ton kartof toplanılmışdır. Kartof toplanışı davam edir.

Cari ildə rayonumuzda ilk dəfə olaraq 26 hektar sahədə şəkər çuğunduru, 1 hektar sahədə çəltik, 16,5 hektar sahədə isə qarabaşaq əkilmişdir.

Qarabaşaq biçini başa çatmış, sahədən 27,2 ton məhsul əldə edilmişdir.

Şəkər çuğundurunun toplanmasına və çəltik zəmisinin biçilməsinə isə oktyabr ayında başlanılacaqdır. Sahələrdən bol məhsul gözlənilir.

Yaşayış məntəqələrində bağçılarımız tərəfindən meyvə toplanılması da uğurla davam edir. Bağlardan bu günədək 7.085 ton meyvə toplanılmışdır.

Üzüm plantasiyalarından isə 1.376 ton məhsul tədarük edilmişdir. Plantasiyalardan üzüm toplanılması davam edir.

Mövsümün əvvəlindən fermerlərimiz tərəfindən 774 hektarda 6.190 ton tərəvəz, 200 hektarda 700 ton qarğıdalı, 8 hektarda 116 ton bostan məhsulları yetişdirilmişdir.

Hazırda kənd təsərrüfatı məhsullarının toplanması işləri davam edir.

**Elmdar ŞƏRİFOV,**
**rayon kənd təsərrüfatı idarəsinin bitkiçilik sektorunun müdiri.**